## Sibir türklərinin yeni poeziyası - Tuva

Tayqana Oçur



Gecə göylərdə ancaq kar ulduzlar axır,
Ah mehriban dostum bir yurd
Bir qızın ürəyinə axan göz yaşlarından sarsılır.
Necə əsarət kəməndinə keçirsə bir at,
Mən də eləcə
Günün birində
Ay doğanda sevdim.
Yenisey gurul-gurul axırdı zatən,
Könlüm qorxurdu itkilərini hesablamağa
Və dumanlı keçmiş yox olurdu yavaş - yavaş.
Qanadlı röyalar yoxdur artıq,
İncə bir sapa düzülən sevgi solğun çiçəyə bənzər
Təəssüf ki, ancaq xatirələrin
əlindən tutub saralan çölləri gəzirəm.

* * *

Ah, dostum, məktublar göndərdim sənə,
Quşlar kimi şən - şaqraq nəğmələr oxuyan məktublar...
İndi onlar yox...
Yəqin ki, yorğundular
Və onlar yollarda qaldılar.
Heç bir səs və ruh yoxdur
Kızıl yüksəkliklərində.
Açıq havada quşlar cəh-cəh vururdular.
Qələbəlik, ürəyin bir tərəfində çöküb qalmayıb düşüncələr,
Dar və qələbəlik sahillərə çırpılır dalğalar,
Sərt ruhların üstündən keçib!

* * *

Baharda
Hər yeni parıldayan yaşamağa başlayır,
Torpaq isinir, bədənimiz isinir,
Toxunma şallara vurulan naxış kimi
Toxunur həyat.
Millər bir - birinə keçir və uçur.
Qış keçir, buz kimi şərqilər söyləyən insanlar
Dağlara qar görməyə gedir.
Gün işığından uzaq qalır,
Buludların kölgəsində gizlənir.
Və külələri sərxoşluq gətirən,
O əyləncəli, soyuq günləri arzulayır!
Bahar günəşində təmizlənir kişilər,
Novruzgülülərdən xalça sərilir yerə.
Sincablar başlarını qaldırıb baxırlar səmaya,
Onlar onsuz da yorğundular və yerin altı da qaranlıqdır.
Uşaqlar yurdların ətrafına yığılıb
Sayzanaq* oynayıb əylənirlər

### Qara bulud

Buludlar olmayanda göy üzündə
Göy üzünün aynasında
Bir qara bulud göründü .

Qara bulud
Qoynunda gizlətdi
Gülüşlərini günəşin

Yağan qar altında bir şaman kimi
Qəfil güzgüləri gizlətdi
Və dumanlı komaları çevirdi,
Altını üstünə gətirdi.
Və bir dəf göy gurultusu kimi
Aşağı diyirləndi...

Ah, bulud,
Qara bulud!
Parıldadın,
Ağ
Və qırmızı
Alov yalaclarında.

Ah, bulud!
Yenə qabdan boşalırmışcasına
Yağmur göndər
Susuzluqdan yanan
Çəmənliklərə…

*Hazırladı:* **Oktay HACIMUSALI**

**Sayzanaq - Tuvalı uşaqların oynadıqları oyun*